# BİZİM GÜNDOĞAR YOLUMUZ

## "Bir bülbülün türküsü" kitabı haqqında düşüncələr



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Bu ilin əvvəlində, yəni, elə təzəlikcə Əli Rza Xələflinin "Bir bülbülün türküsü" adlı yeni bir kitabını da bizim mətbəədə nəşr etdik. Bu kitabın məziyyətləri haqqında çox söhbət gedəcək. Çünki bir neçə cəhətdən "Bir bülbülün türküsü" əsəri fərqli müstəvidə görünür.

Əvvəla, onu deyim ki, əsər ümumən məsnəvi formasında qələmə alınıb. Məlumdur ki, məsnəvi Azərbaycan ədəbiyyatında yüz illər boyu aparıcı bir janr olaraq işlənmişdir. Məsnəvinin ənənəvi forma alması görkəmli sənətkarların adları ilə bağlıdır. Nizami Gəncəvinin məşhur "Xəmsə"si və eləcə də, "Xəmsə"ni nəzirə edən müəlliflərin əsərləri də bu formadan istifadə ilə qələmə alınmışdır. Hətta Cəlaləddin Ruminin məşhur hikmətlər mahiyyəti daşıyan fəlsəfi əsəri də həm məsnəvi formasında yazılıb, həm də elə "Məsnəvi" adı ilə məşhurdur.

Mənə elə gəlir ki, uzun tarixi dövr ərzində şairlərin məsnəvi janrına müraciət etməsi təsadüfi deyil. Çünki bu forma şairin özünü ifadə imkanlarına şərait yaradır. Həyatın ən geniş lövhələrini epik düşüncə tərzindən keçirərək məsnəvi formasında yazıya gətirmək şair üçün çox münasibdir.

"Bir bülbülün türküsü" əsəri təkcə epik mahiyyət daşımır, həm də bu əsərdə hər hissənin əvvəlində, axırında lirik şeirlər müəllifin ovqatını təqdim edir. Doğrudur, əsərdə konkret ədəbi qəhrəman var, ancaq o tək deyil. Müəllif əsas obraz olaraq seçdiyi ədəbi qəhrəmanın tale yolunu ardıcıl olaraq izləyir. Onu yetirən mühiti, onu böyüdən mənəvi aləmi daha əhatəli şəkildə təqdim edir.

İmamverdi Əbilov görkəmli ədəbiyyat xadimi idi. Xüsusilə o, XX əsrin ikinci yarısında epistoliar janrın inkişafında misilsiz xidmətlər göstərmişdir. Onun Azərbaycan ədəbiyyatının görkəmli xadimləri ilə yazışmaları söz xəzinəmizin ən dəyərli inciləri kimi gələcək nəsillərə ərməğan olunub. İmamverdi Əbilovun mənəvi mühiti sözün həqiqi mənasında böyük söz mülkünü əhatə edir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ictimai fikrinin tarixi kökləri daha çox şərq fəlsəfəsinə söykənir. Şərq düşüncə tərzi, şərqin mənəvi mühiti, görkəmli filosofların yaradıcılığında əks olunub zəmanəmizə qədər gəlib çatır.

"Bir bülbülün türküsü" əsərinin gənc qəhrəmanı, şərqşünas Əbil Etibaroğludur. Əbilin yaradıcılıq örnəkləri həcmcə o qədər çox olmasa da, amma məna baxımından çox zəngindir. Bu gənc az müddətdə həm klassik şərq fəlsəfəsini öyrənib, Nəsimini, Nəimini tədqiq edib, həm də paralel olaraq türk tarixi ilə bağlı axtarışlar aparıb. Türkün Turan yolunu yaradıcılığı ilə əks etdirməyə çalışıb. Onun çox dəyərli "Sevda türküsü", "Çöl mədəniyyəti" kitabları əslində yaradıcılığının uvertürası olsa da, onun çox böyük gələcəyindən xəbər verən ədəbi-fəlsəfi örnəklərdir. Kitabı Əli Rza Xələfli mətbəəyə təqdim edəndə şifahi olaraq aramızda belə bir fikir mübadiləsi oldu. Niyə "Bir bülbülün türküsü"? Bu ad haradan gəlir, - soruşdum. O da mənə cavab verdi ki, haqqında bəhs etdiyim gənc şərqşünas həm də türkoloqdur. O, şərq fəlsəfəsini tədqiq etsə də, türk tarixi ilə ciddi maraqlanıb. Mənə elə gəlir ki, onun yazdıqlarını türk tarixi ilə bağlı nəğmələr də hesab etmək olar. Daha heç nə soruşmadım. Deməli, əsərin adı müəllifin taleyi ilə bağlı mənanı ifadə edir. Kitabı çox diqqətlə oxudum və belə bir annotasiya yazdım: "***Şair-publisist Əli Rza Xələflinin "Bir bülbülün türküsü" adı ilə oxuculara təqdim olunan kitabına gənc şərqşünas Əbil Etibar oğlunun xatirəsinə həsr olunmuş poema və esselər toplanmışdır. "Bir bülbülün türküsü" poemasında ictimai fikir tariximizin maraqlı səhifələrinə poetik nəzər yetirilir. İstedadlı şərqşünasın həyatı fonunda oxucu qürurun və kədərin ümumi axarına qovuşur. Əsər klassik poeziyamızın ənənəsi ruhunda yazılmışdır. Kitabın "Əlavələr" bölməsində görkəmli ədəbiyyatşünas alim İmamverdi Əbilovun müəllifə ünvanlanmış məktubları və Xalq şairi Zəlimxan Yaqubun həyatla vaxtsız vidalaşmış Əbilin itkisi ilə bağlı doğmalarına həsr olunmuş iki şeiri də yer alıb***". Doğrusu, bu annotasiyadakı qəmli notları yazmaq mənim üçün də asan deyildi. Çox istedadlı bir gəncin həyat yoluna işıq tutan əsərin mahiyyətini bir neçə cümlədə ifadə etmək lazım gəlirdi. İstər-istəməz gənc Əbil Etibaroğlunun qısa ömrü ilə bağlı kədərli notları qeyd etməmək mümkün deyildi.

Görkəmli tənqidçi-ədəbiyyatşünas Qurban Bayramov bu əsəri fəlsəfi fikir düşüncəmizin poetik formatda fəxriyyəsi adlandırır, sonra da xalq şairi Məmməd Rahimin məşhur "Bülbül" nəğməsindən ilk bəndi epiqraf gətirir:

Yenə qonub şah budağa,
Nə sızlarsan belə, bülbül?!
Vəfasızdır yarın sənin,
Yanıb dönmə külə, bülbül!

Çox təsirli nəğmədir. Ümumiyyətlə, bülbül haqqında olan bütün nəğmələrin hamısında bir kədər ovqatı var; bəs bu haradan gəlir?

Əfsanəyə görə bülbül gülün həsrəti ilə nəğmələr oxuyur. Gül kolunun ətrafında vurnuxur, çırpınır. Həsrətli nəğmələri ilə gülün qönçədən çıxmasını arzulayır. Amma deyilənə görə gül qönçədən çıxanda özünü hədsiz kədərli nəğmələrlə yandıran bülbülün gözləri tutulur. O, gülün açılmasını görə bilmir.

Bu əfsanəni niyə yada salıram. Hiss etdim ki, elə Qurban Bayramovun özü də kitaba "Ön söz" yazarkən hisslərini cilovlaya bilməyib. Emosiyalarının köhlən kimi şahə qalxmasına bir az da rəvac verib. Bununla da, elə bir "Bir bülbülün türküsü" poemasının sanki ədəbi-tənqidi müstəvidə yeni bir variantını yaradıb: "*Neçə illər bundan qabağın sözüdür (1915) olduğu kimi yenidən təkrar edirəm: "Lap əvvəldən başlamaq istəyirəm. Elə, Əli Rza Xələflini tanıdığım vaxtdan. Daha bu imzaya, bu ada şair, yazıçı, publisist, jurnalist, tədqiqatçı adlarını əlavə etmədən. Çünki, Əli Rza Xələfli imzası müasir ədəbi və ictimai mühitdə özünə elə köklü-köməcli yer tutubdur ki, adı çəkilən kimi bunların hamısı yada düşür. Özü də, həqiqət naminə, onu da deyim ki, sıraladığım bu yaradıcılıq sahəsinin hər birində Əli Rza Xələfli özünəməxsus, orijinal bir məqamdadır və elə, onun bircəsi ilə də, məşğul olsaydı tanınacağıdı, seviləcəyidi, rəğbət doğuracağıdı...* ". Görkəmli alimin bu mülahizələrinə əlavə üçün nə demək olar? Bircə onu deyərəm ki, bu fikirlərlə mən də razıyam. Çünki Xələfli ilə uzun illər dostluq və yaradıcılıq münasibətlərimiz uğurla davam edir. Və onun ən müxtəlif janrlarda qələmə aldığı əsərləri oxumuşam. Təkcə oxumaqla kifayətlənməmişəm, həm də nəşr etmişəm. Həqiqətən, Əli Rza Xələfli dəyərli nəsr əsərlərinin də müəllifidir. Onun romanları, povestləri, ədəbi-publisistik hekayətləri çox dəyərlidir. Ədəbi-tənqidi ədəbiyyatşünaslıq fəaliyyəti də göz önündədir. Amma, əlbəttə, biz onu Azərbaycanın ən yaxşı poetik ənənələrinin davamçısı olan bir şair kimi tanıyırıq.

Tənqidçi ədəbiyyatşünas Qurban Bayramov özü də mövzuya əhatəli yanaşmağı bacaran müəllifdir. Ona görə də Xələfli ilə bağlı qeydlərini qələmə alarkən onun özünəxas, nadir cəhətlərini də müşahidə edib. Və bu barədə yazılarına qızırğanmadan maraqlı məqamlar gətirir. Xələflinin müxtəlif janrlarda uğurla qələm işlətməsinə işarə ilə sözünə davam edir: "*Səhv etmirəmsə, buna yaradıcılıq polifonizmi deyirlər, başqa sözlə, Əli Rza Xələfli çoxşaxəli yaradıcılıq imkanlarına malik "qələmsiz" qələm adamıdır və mən özüm də, elə əvvəldən onu bu cürə tanımışam... "Qələmsiz qələm adamı" ifadəsini də, deyəsən, onun haqqında ilk dəfə mən işlətmişəm, özü də, bir əlavə ilə, demişəm ki, Əli Rza Xələfli qədim Roma filosofları kimi, nə yaradırsa, bir əli cibində, bir əlində siqaret tutaraq qələmsiz-kağızsız diktə edir. İndi də, bu fikri improvizə edərək, əlavə edirəm ki, nə yaradırsa şifahi şəkildə yaradır. Elə ona görə də, onun bütün yaradıcılığı şifahi xalq yaradıcılığı təkin şirin, cazibədar və diqqətçəkəndir...*". Kimsəyə qəribə gəlməsin, burada şişirdilən, xalq arasında deyildiyi kimi, gopa bənzər heç nə yoxdur. Müəllif məqaləsində Xələflinin yaradıcılıq laboratoriyasına uyğun mülahizələr irəli sürür, çünki o, bu yaradıcılıq məkanının, demək olar ki, bütün sirlərini yaxşı bilir.

Bu barədə fikirlərimi əhatəli verməkdə məramım, məqsədim budur ki, gələcək nəsillər bu günün yaradıcı insanının taleyi ilə maraqlanarkən onların zamanın yaddaşında itə biləcək fərdi xüsusiyyətlərini də görsünlər, bilsinlər. Müəllif Əli Rza Xələflini ürək, könül dostu adlandıraraq (elə mən özüm üçün də bunu məqbul bilirəm) yazır: "*Mənim üçün (həmçinin eləcə də onu tanıyanlar üçün də) heç bir metaforaya sığışmayan bir qələm əhli, ürək və əqidə dostum var - bu, şair, yazıçı, publisist-jurnalist, tədqiqatçı-tənqidçi Əli Rza Xələflidir! Bu adın, bu imzanın özü müasir ədəbi prosesdə həyatı bədii-fəlsəfi dərkin və inikasın bütöv bir sistemini özündə ehtiva etməyə qadirdir!.. Əli Rza Xələfli adı, imzası ədəbi-bədii siferada ülfət və ünsiyyət mücəssəməsidir! Ülfət və ünsiyyət intiqralının bütün kodları onun ürəyinin, qəlbinin döyüntüləri ilə kodirovka ola bilər!..*". Zənnimcə, bu qeydlər mənim də dostumun ədəbi fəaliyyəti ilə bağlı fərdi cizgiləri kifayət qədər aydın təqdim edir. Bundan sonra Qurban Bayramov müəllifin geniş tərcümeyi halına müraciət edir. Onun yaşam və yaradıcılıq yolunu tutarlı dəlillər əsasında oxucuya çatdırır. Bu qeydlərdən sonra biz istər-istəməz belə bir qənaətə gəlirik ki, yaradıcı insan üçün meydan həmişə genişdir. Təki yaradıcı insan zəhmətdən qorxmasın, ürəklə səmimi könül duyğuları ilə sözünü dilə gətirə bilsin.

"Bir bülbülün türküsü" əsərini oxuduqca həm klassik, həm də müasir Azərbaycan ziyalılarının ümumi axını gözlərimin önündən keçdi. Əlbəttə, müdrik, ağsaqqal İmamverdi Əbilov və onun əhatə dairəsi və özü də kifayət qədər geniş mühiti Əbil kimi gənc bir şərqşünasın yetişməsi üçün əsas ola bilərdi. Amma bunun üçün müvafiq tarixi zaman və şərait olmalı idi. Bu şərait azad fikrin, azad düşüncənin özünü göstərə biləcəyi vaxtdan asılı idi. Bu da Azərbaycanın öz istiqlalına qovuşması ilə bağlı idi.

Əsərdə iki obrazı daha qabarıq və qoşa addımlayan görürəm. Bu obrazlardan biri, bəlkə də, birincisi bülbül obrazıdır. İkincisi, gənc şərqşünas Əbil Etibaroğludur. Zənnimcə, bülbül obrazının müəllif düşüncəsindəki kəşfi çox uğurludur. Çünki gənc şərqşünas Əbilin taleyi ilə bağlı ən münasib detal kimi müəllifə fikirlərini ifadə etməyə əsas olur.

Poema dörd hissədən ibarətdir. Birinci hissə "Könlümün Füzuli əmanəti" adlanır. Bu hissəni müəllif elə bülbül obrazı ilə başlayır: "*Bu bağ sənin bağındır, nəğməni oxu, bülbül!... Çək döşünə bəxtini, var azı, çoxu, bülbül. Qanlıca qanıq gələ, neyləyər qınaq belə, Dərdinə qonaq elə sən acı, toxu, bülbül. Ha çırpına torunda, ütülər öz qorunda, Üzə çıxar sorunda yovşanlı qoxu, bülbül*". Nə qədər orijinal, nə qədər duyğulu nəğmə misralarıdır. Müğənnilər üçün çox dəyərli nəğmə mətni ola bilər.

Elə birinci hissədə müəllif müdrik İmamverdi Dədənin düşüncə yoluna nəzər salır. Onun mədəniyyətimizin tanınmış nümayəndələri kimi övladlarının adlarını çəkir. Zənnimcə, bu da təsadüfi deyil. Azər Turan kimi, Etibar İmamverdi oğlu kimi ziyalıların mühiti əslində elə Əbilin ən üstün məktəbi idi. Müəllif Muğan diyarının mənəvi zənginliyini çox duyğulu misralarla əsərə gətirir.

**(*Davamı 11-ci səhifədə*)**

# BİZİM GÜNDOĞAR YOLUMUZ

## "Bir bülbülün türküsü" kitabı haqqında düşüncələr

*(Əvvəli 10-cu səhifədə)*

Zənnimcə, bir parçanı oxucu da izləyə bilsə, fikrimizin nə qədər əsaslı olduğuna heç bir şübhə etməz:

Ağsaçlı bir qoca da dinlədikcə bülbülü,
Gözlərindən yaş axır, şeh isladır hər gülü...

Bülbül də nəğməsini saxlamır hey ötürdü,
Bu nəğmənin yanğısı dörd bir yanı ütürdü...

Ərşi əla yanına çağırır hər bir kəsi,
Çağırıb cəm eləyir bülbülün qəmli səsi...

Yaşayan sevdaların eşqinə oxuyuram,
İki cahan evinin bəxtini toxuyuram...

Sinəmi Muğan bildim - quzu dərdlər gürnacı,
Bəxtimə yazılıbmış Şəhriyarın qəm tacı...

Kimsə mənə deməsin səsində qəm ladı var,
Onsuz da hər bir səsin acı, şirin dadı var...

Mənim könül dünyamda Füzuli əmanəti,
Qoruyar öz yerini bu Tanrı zəmanəti...

Mənim könlüm müəllim - Xaqani məktəbimdir,
Vətən eşqim ilhamım, dilim çağlar təbimdir...

Dədə yurdu könlümdə Nizami ocağıdır,
Xəzər dərya qəlbimin dalğalı qucağıdır.

Əlavə bir şərhə lüzum qalmır. Nə qədər duyğulu, insanın mənəvi mühitinə axın-axın estetik zövq bəxş edən beytlərdir. Özü də beytlərin hər biri sanki tanrı dərgahından süzülüb gələn səslər kimi yazıya dönür. Mətnin içərisindəki fikirlər oxucu yaddaşına hopur. Misralar olduğu kimi yadda qalmaya bilər. Amma beytlərin ifadə etdiyi məzmun çox təəssüratlı hekayətlər kimi bizi izləyir. Yaddaşımıza yazılır. Bizi inandırır ki, dünyadan köçüb getmiş müdriklərdən qalan mənəvi sərvətlər, dünyanın hər cür maddi sərvətlərindən üstündür.

Əsərin ikinci hissəsi "Gündoğarın zirvəsində" adlanır. Əvvəla, "Gündoğar" adı barədə; qədim insanlar belə düşünürdülər ki, günəş dənizdən doğur. Ona görə də onlar Muğanı, Muğanın Xəzərlə qovuşan tərəflərini Gündoğar adlandırırdılar. Bir çox kitablarda Azərbaycana elə "Gündoğar ölkəsi" adı ünvanlayıblar. Maraqlıdır ki, Hüseyn Cavid də öz qəhrəmanını Gündoğar ölkəsindən olduğunu yazırdı. Yadıma düşmüşkən, onu da bildirim ki, Neftçala rayonunda çıxan qəzetin adı da Gündoğardır. Müəllifin ayrı-ayrı ifadələrlə obraz yaratmaq, iki kəlmənin içərisində geniş fikir demək gücü elə sərlövhədə də görünür. Müəllif "Gündoğarın zirvəsində" deyəndə nəyi nəzərdə tutur. Axı Muğan düzəngahdır. Gözəlliyi ilə göz oxşayan Muğan Xəzərin ətəklərinəcən uzanır. Deməli, müəllif Gündoğarda zirvədən danışanda bu yerin uca fikir adamlarını nəzərdə tutur.

Onu da deyim ki, əsərin bu hissəsi də "Bülbül" şeiri ilə başlayır.

Hər kəs mənim sözümə baxar yandan ad verər,
Yaramın göynəmini görər, candan dad verər,
Qəlbimə məlhəm səsin ruhuma qanad verər,
Çəkilər gözlərimdən qərəmət, yuxu, bülbül...

Könül evin uçdusa dərdin dərindən dərin,
Harda yuva quracaq dünya boyu kədərin,
Sənin də qismətindir, bu dərdli nəğmələrin,
Arama yaxşı, pisi, nə azı, çoxu, bülbül...

Yandırıb qəlbimizi odu siracı dünya,
Arzu istək çeynəyir tamahlar tacı dünya,
Açıb ilan ağzını dərdlərin acı dünya,
Nəğmən də doyurmadı bu acı, toxu, bülbül...

Qəmlərinin evində başa çəksən simsarı,
Ürəyi tel-tel olar, gülər qışı, baharı,
Özünə həmdəm bilsən bu Xələfli qəmxarı,
Qurbandır sənə deyər hər varı, yoxu, bülbül...

Bu hissədə müəllif yenə Azərbaycan mənəvi mühitinin tarixindən günümüzə gəlir. Zərdüştü yada salır. Muğlar diyarı Muğandan danışır. Ən başlıcası, onun özünü Muğana bağlayan tarixi yaddaşı əlçim-əlçim sözə çevirir. Bulud, bulud fikirlər mənəvi dünyamızın yaşayan duyğularından söz açır. Məlum olur ki, O, təhsilinin bünövrəsini indi dəniz içərisində qalan adadakı məktəbdə alıb. Sözün həqiqi mənasında çox təsirli lövhələr yaranır. Demək, insan hara getsə hardan gəlsə, yenə yaddaşa bağlıdır. Bu yaddaşın elə notları var ki, insanın ömrü ilə əbədi bağlanır. Daim yaşarı bir güc kəsb edir.

Gündoğar elə yerdir Günəş öpər dənizi,
Torpağın üzü gülər, nurlanar öz bənizi...

Böyük Çölün yaxası düymələnər sahildə
Həzin həzin danışar, külək dinər sahildə...

Qədim Muğlar diyarı - Muğan bizim sinəmiz,
Döyünən ürəyimiz, bu can bizim sinəmiz...

Ulu Zərdüşt sözünü Muğan yadda saxlayıb,
Səməd Vurğun "Muğan"da alıb adda saxlayıb..
.
Muğan Muğan oldusa birini üç eyliyər,
Muğan tufan oldusa, üçünü heç eyliyər...

Ölməz Muğan dastanı hopub elin ruhuna,
Varlığı naxış vurub sözün, dilin ruhuna,

Şöhrətli, adlı hər kəs Muğanı ünvan bilib,
Muğanı varlığında əbədi bir can bilib...

Əbilin də boy atıb, böyüdüyü yer bura,
Bura Səhra, Dənizdir, Günəşdir baxsan hara.

Mənə maraqlı gələn bir məqam da diqqətimi çəkdi. Uzun illərdən sonra müəllifin yaddaşından gələn yol onu təzədən Neftçalaya aparır. Başqa sözlə, biz onu yenə Gündoğarda görürük. Bu yerin insanları ilə onu dostluq və qohumluq telləri bağlayır. Və əsərin bu yerində nəvələrinin adlarını çəkir. Sanki bununla onları da qədim Muğlar diyarı ilə bağlayır.

Xəlil Rza Ulutürk, Habil Əsəd, Xəlil Xantemir oğlu, məşhur pedaqoq Əjdər Ağa, Ənvər İmanov, onun oğlu, həyatdan vaxtsız getmiş gənc Bəxtiyar sadalanır. Bununla, sanki, gənc şərqşünas Əbilin həyatdan vaxtsız getməsinə bir təskinlik mühiti də yaradır. Doğrusu, müəllifin sözün həqiqi mənasında insanlara xüsusi bir sevgi ilə yanaşmasını, fikir və düşüncə adamlarını sözünün zirvəsinə çəkərək tərənnüm etməsini ayrıca qeyd etməyə bilmərəm. Daha bir parçanı təqdim edirəm:

Yenə təmkin dağıdır Ənvər bizə sözündə,
Ümid, inam işığı... oğacında, közündə.

Əbillər, Bəxtiyarlar... qopan, sınan budaqlar,
Zaman-zaman göynəmdir bu yaralar, bu dağlar.

Yenə təskinlik yeri müdriklər, aqillərdir,
Yaşayan xatirələr simlərdir, naqillərdir.

Yön salıb, yol çəkirəm müdriklərin yanına,
Onların təmkinindən pay alım söz canına.

Ustad Soltan Abbasın ömür yolu dastandır,
Yazdığı, yaratdığı "Büstan"dır, "Gülüstan"dır.

Həbib Həbiboğlunun hər sözü bir nəfəsdir,
İlhamıma yol açan sonsuz istək, həvəsdir

Ələvsətdən nə deyim, söz içində cızdağdır,
Daş əridən zəhməti sinəsində bir dağdır...

Sabir Rüstəmxanlının dostu Ələkbərin də,
Payı var Gündoğarın işıqlı səhərində...

Cahangir müəllimin sözünün ləngəri var,
Dədə yollu hikməti, mövqeyi, səngəri var...

Zabil Pərviz bir Günəş, doğulub Gündoğarda,
Bu dünyaya gəlib ki, qaraları ağarda...

Həyatı Muğam üstə köklənib Zabul olub,
Ağrı acı içindən diklənib Zabil olub...

Dədəni mürşid bilib sözündə, söhbətində,
Müridlik yolu tutub dünya həqiqətində...

Gündoğar bir çəməndir burda güllər açılmış,
Dilə gəlib bülbüllər, susqun dillər açılmış...

Əbil də bu çəmənin əbədi solmaz gülü
Bir sevda türküsünün bu nəğməkar bülbülü...

Həyat iztirablarla, sevinclərlə, duyğulanmalarla, bir sözlə, gözəlliklərdən alınan estetik zövqlə mənalı olur. İztirabları da qeyd edirəm, ona görə ki, insanlar həyaın ağrılı tərəflərini də görməli, bunun da mahiyyətinə varmağı bacarmalıdır. İztirabları duymaq, qavramaq sanki insanın yaddaşına diktə edir ki, o bütövlükdə cəmiyyətin bir hissəsidir. Cəmiyyətdən kənarda deyil. Bir sözlə, insan cəmiyyətin bir parçası olaraq dəyərlidir. Yoxsa, Robinzon Kruzo kimi tənha adada yaşamaq, cəmiyyətdən təcrid olunmaq həyatın rənglərindən təmas duymamaq onun fiziki məhvinə səbəb olardı.

Əsərin növbəti hissəsi, yəni üçüncü hissə "Yel əsdi çöl üstündən" adlanır. Axı, bu qeydlərin əvvəlində mən yada salmışdım ki, gənc şərqşünasın tədqiqat istiqamətlərindən biri də qədim türkün keçdiyi tarixi yol idur. Bu tarixi yolu Əbil Etibaroğlu çöl mədəniyyəti kimi qavrayır. Təsadüfi deyil ki, onun dəyərli kitablarından biri də "Çöl mədəniyyəti" adlanır.

Gənc şərqşünasın həmin kitabında dünya mədəniyyəti tarixinə özünəxas səhifələr yazmış Turan igidlərindən bəhs olunur. Eləcə də, Turan dünyasının mənəvi sərvətləri də diqqətdən kənarda qalmır.

"Bir bülbülün türküsü" əsərinin müəllifi bu hissəni də çox dərin fikir axarları üzərində qurub. Həm də, ümumiyyətlə, əsərin ümumi ruhuna çökmüş mistik bir hissiyat, kədər ovqatı burada da hiss olunur. Müəllif bu hissədə Mənsur Həllacın, Nəsiminin, Nəiminin adlarını çəkir, Azərbaycanın tarixi taleyində onların ictimai fikir tariximiz üçün yerini poetik ifadə tərzi ilə yazıya gətirir. Ancaq bu hissədə daha çox Azərbaycanın çox gənckən dünyadan getmiş poeziya fədakarlarının, sənət sevdalılarının məqamına diqqət yetirir. Biz bu hissədə Mikayıl Müşfiqin, Asəf Zeynallının, Ərtoğrul Cavidin, ümumiyyətlə, Cavidlərin mənəvi mühitlərini göz önündən keçiririk. Şübhəsiz, Gündoğara, Muğana fikir verən böyük fikir adamlarının düşüncə imkanları da diqqətdən kənarda qalmır. Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Zəlimxan Yaqubun adları xatırlanır. Söhrab Tahirin, Vaqif və Yusif Səmədoğluların adları ilə Gündoğarın işıqlı mənəvi mühiti daha artıq parlaqlığı ilə göz önünə gəlir. Azərbaycan ədəbiyyatının müdrik ağsaqqalı, xalqımızın böyük oğlu Anara münasibət də xüsusi hörmət məqamında oxucu diqqətinə çatdırılır. Bu hissədə İmamverdi Əbilovun möhtəşəm yubileyindən də bəhs olunur. Təqribən belə bir fikir təlqin olunur ki, zəkalara işıq salan insanların olduğu məkan xalqın hansı tərəfdən baxmasından asılı olmayaraq, gördüyü zirvələrdir.

Kür, Xəzər ocağında dədənin səksən ili,
Min ilə bərabər tut, nizama çəksən ili.

Tədbirin baş sözçüsü Zəlimxandır burada,
Ulu tarix canlanır, cərgələnir sırada.

Nizamidən bu yana ruhları salamlayır,
Şəhriyar bu salamı Təbrizə, Ərkə yayır.

Zəlimxanın səsində eşqin nuru çağlayır,
Dədənin sinəsində sevgi Kürü çağlayır.

Dədənin haqq yolundan böyük Anar danışır,
Millətinin yolunda qəlbiyanar danışır.

Söhrab Tahir söz açır Kür üstündə körpüdən,
Ömürlər necə keçir nur üstündə körpüdən.

Vaqif Səmədoğlu da Vurğunu yada salır,
Aybənizin çıxışı həsrəti oda salır.

Dəyişən zamanların qovuşan çağıdır bu,
Şahdağa boy göstərən Savalan dağıdır bu.

Mənim də sözüm oldu, söylədim pir Dədəyə,
Açdım könül varımı, pay verdim sirr Dədəyə.

Müəllifin lirik ovqatı əsər boyu bizi izləyir. Bu hissə də çox kövrək bayatılarla yekunlaşır. Bu bayatılarda da yurd yanğıları, vətən duyğuları mətnin əsas xətti kimi anlaşılır.

Əsərin dördüncü hissəsi "Göy üzündən Ay nuru" adlanır. Və elə oxucu yaddaşına hopacaq bir duyğularla, lirik bir şeirlə başlayır.

**(Davamı 14-cü səhifədə)**

# BİZİM GÜNDOĞAR YOLUMUZ

## "Bir bülbülün türküsü" kitabı haqqında düşüncələr



*(Əvvəli 11-ci səhifədə)*

Mələklərin, küləklərin, lələklərin, diləklərin obrazlaşan duyğuları ilə oxucu varlığına sonsuz estetik zövq aşılayır. Müəllif yenidən tarixə müraciət edir. Orxon-Yenisey abdiələri, Alp ər Tonqa yada düşür. Hun qüdrətindən bəhs olunur, Atillanın Avropanın titrədən hərbi yürüşləri göz önünə gəlir. Dünyanın çox nadir bir xalçası var. Bu, pazırıq xalçası adlanır. Məşhur pazırıq kurqanında buz altında qalaraq neçə min illik yol gəlib və zəmanəmizə çatıb. Müəllif çox ustalıqla bu epizodları gənc şərqşünas Əbilin tədqiqat yolu ilə əlaqələndirir.

Əbilin çox zəngin könül evi olub. O, bu evi Əhməd Yasəviyə sevgi ilə qurub. Böyük Turan yolunun təkcə tarixdə yox, həm də insanların mənəviyyat dünyasından, qəlbindən keçdiyini əsər bütün qatları ilə oxucuya təlqin edir. Və çox maraqlı bir yanaşma ilə başa çatır:

Yol çəkdim Qarabağdan Gündoğara sözümlə,
Neçə ocaq yerindən od götürdüm gözümlə.

Mən Əbili görürəm dənizin üfüqündə,
Onunla görüşürəm səhərin şəfəqində.

Yanan qəlbi atəşlə işıq salır yazıma,
Çiçək-çiçək açılır payızıma, yazıma.

Bir müdrik Dədə baxır, Muğandan əl eləyir,
Əbilin dastanına "Əlvida demə" deyir.
Dolmuş bulud kövrəlir, Muğana nur ələyir,
Bir könül təşnəsiyəm, ruhuma su çiləyir.

Bu misraların axırını Xələflinin "Bir könül təşnəsiyəm" misraları ilə bitirməsi də təsadüfi deyil. Əslində elə əsər könül təşnəsi olmağın motivləri əsasında qurulub. Mən "yazılıb" demirəm, "qurulub" ifadəsi işlədirəm. Çünki bu əsər çox maraqlı struktura malikdir. Bu əsərdə tarix və müasirlik, dövrümüzün sənətkarları və tariximizin görkəmli ədəbi simaları bir-birinə qovuşuq müstəvidə təqdim olunur, özü də asanlıqla ayırmaq olmur. Tarix müasirliyə qovuşur, müasirlik də tarixin içindən boy göstərir.

Bu əsərin əgər quruluşundan danışırıqsa, onda müəyyən məqamlara da diqqət yetirmək lazım gəlir. Müəllif təəssüratlarına daxil edə bilmədiyi, daha doğrusu daxil etmədiyi epizodları əsərin publisistika bölümünə və yaxud da əlavələrinə artırır. Onu da deyim ki, bu kitabda Əli Rza Xələflinin çox dəyərli poletik publisistikamızın çox əhəmiyyətli, nadir nümunələrindən olan bir əsəri də yer alıb. Çox güman ki, müəllif "Yarımçıq ömrə elegiya" adlandırdığı həmin esseni görkəmli alim, ədəbiyyatşünas İmamverdi Əbilovun məktublarla ona müraciətindən sonra qələmə alıb. Çünki "Dağ var, dağdan yuxarı" adlı məktub İmamverdi Əbilovun özünə ünvanlanıb. Bu məktubdan sonra müəllif gənc şərqşünas Əbil Etibaroğluna xatirəsinə həsr olunmuş essesini təqdim edir. Əlavələr bölümündə İmamverdi Əbilovun Əli Rza Xələfliyə ünvanlanmış məktubunu, xalq şairi Zəlimxan Yaqubun "Azər Turana təsəlli", "Ağsaqqal ağrısı" adlı şeirlərini də həyəcansız oxumaq olmur. Nəhayət, Əli Rza Xələfli "Sözdə yaşamağın dəyəri" adlı son sözlə "Bir bülbülün türküsü" kitabına yekun vurur.

Kitaba görkəmli ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Yədulla Ağazadə də çox hissiyyatlı bir rəy yazıb. Və kitabın, demək olar ki, bütün məziyyətlərini burada ümumiləşdirə bilib. Yədulla Ağazadə öz qeydlərində İmanverdi Dədənin bu sözlərini xatırladır: "Əzizim! Təkcə günün hadisələrinə, gələcəyin xəyali mənzərəsinə qırılmaz tellərlə bağlı olan həssas ürəkli, həssas diləkli - saf ürəkli, saf diləkli - sözünün ağası olan - ziyalı - yazıçı və redaktor kimi həmin yazını sizə göndərir və xahiş edirəm ki, mənim qısa məktubumla onu qəzetdə dərc edəsiniz". Burada söhbət Əbil Etibaroğlunun "Sevda türküsü" adlı essesindən gedir.

Yədulla Ağazadə İmanverdi Dədənin Əli Rza Xələfli ilə yazışmalarını ədəbi mühitimizin sözə həssas yanaşmaya ən bariz örnəkləri kimi qavrayır. O, ümumiyyətlə, insan hisslərinin ifadəsi olan sözün duyğulanma məqamını daha üstün tutur. Dədənin belə bir sözünü diqqətə çəkir: "Əlirza, mən sənin sözünü gözləyirəm. Bəlkə sənin sözün mənə təskinlik olar". Yədulla Ağazadə bu sözləri təsadüfi nümunə gətirmir. Hiss olunur ki, bu sözlərin arxasında dayanan emosional çaları bütün qatlarına qədər qavrayır və bu hissin təsiri altında öz sözlərini deməyi daha üstün tutur. Sonluqda isə belə qeydləri ilə diqqətlilərin rəğbətini də qazanır. "Xələflinin Muğan ellərinə, elə bizim Lənkərana da bağlayan tellərin tarixi kökləri var. Onun Şəddat müəllimlə yaradıcılıq əlaqələri ayrıca tədqiqatın işidir. Bunun üçün onun yaşam yoluna ayrıca diqqət bəs edər ki, bir çox həqiqətləri biləsən. "Bir bülbülün türküsü" əsəri həmişə oxunacaq bir nəğmədir. Oxunduqca da ürəkləri titrədəcək, hər kəsi həyatı sevməyə, həyatı sevənləri uca tutmağa çağıracaq".

Beləliklə, müasir ədəbiyyatımızın ən nadir nümunələrindən birinə publisistik yönümdə münasibətimi bildirməyə çalışdım. Bu qeydlərin arasında müasir dünyamızın ağrısını çəkə bilən hər kəs özünə uyğun, ruhuna təskinlik ola biləcək duyğular, düşüncələr tapa bilər. "Bir bülbülün türküsü" qəlbimizcə oxunan nəğmədir.

*07.02.2023*